**Azərbaycan Respublikası Ali Məhkəməsinin**
**Mülki Kollegiyasının 12 may 2017-ci il tarixli**
**2(102)-3204/2017 saylı qərarından**
**AR Konstitutsiya Məhkəməsinə**
**verilən şikayətlə bağlı**

# RƏY

## 1. Hüquqi məsələlər

**1.1.** İstənilən bir tələblə bağlı iddia qaldırıldıqda məhkəmə icraatının ən əsas və vacib vəzifəsi həmin tələbin hüquqi əsasının olub-olmadığının məhkəmə tərəfindən müəyyən olunması vəzifəsidir. Məhkəmə bunu tərəflərin həmin tələblə bağlı hansı hüquqi əsaslandırmanı irəli sürmələrindən asılı olmayaraq müstəqil surətdə müəyyən etməlidir. Çünki məhkəmlərin ən əsas və ümdə vəzifəsi pozulmuş hüquqların bərpasını təmin emtəkdir. Hüququn pozulub-pozulmadığı isə, qüvvədə olan qanunvericiliklə müəyyənləşdirilir. Bu nöqteyi-nəzərdən də müqaviləyə istinad edilərək hər hansı bir tələb irəli sürüldüyü təqdirdə, məhkəmə icraatının ilk vəzifəsi və aydınlıq gətirməsi lazım gələn xüsusat həmin müqavilənin etibarlı olub-olmadığının müəyyənləşdirilməsidir. Çünki müqaviləyə istinad edilərək irəli sürülən tələbin hüquqi əsasının olub-olmaması ilk növbədə istinad olunan müqavilənin etibarlı olub-olmamağından asılıdır. Aydın məsələdir ki, tələbin əsaslandığı müqavilənin etibarsız olması, həmin müqavilə üzrə tələb hüququnun yaranmadığını göstərir. Etibarızlıq anlayşı məhz elə hüquqi nəticə əmələ gətirməməyi ifadə edir. Buna görə də, əqdlərin, o cümələdən əqdin ən geniş yayılmış növü olaraq müqavilələrin etibarsız olması demək həmin müqavilələrin (əqdlərin) hüquq və öhdəlikləri əmələ gətirməməsi deməkdir. Nəticə etibarı ilə müqavilənin etibarsız olması, avtomatik olaraq irəli sürülən tələbin həmin müqavilə üzrə hüquqi əsasının olmadığını da göstərir.

**Bu səbəblə də ilkin iddia işi üzrə məhkəmə icraatı və həmin icraatlar üzrə qəbul edilən məhkəmə qətnamələri hüquqi və məntiqi zərurət olaraq həmin müqavilənin etibarlı olub-olmadığı məsələsini də əhatə edirdi. Məhkəmə icraatında tərəflərin iddiaçı və ya cavabdeh olaraq statuslarının dəyişməsi istinad olunan müqavilənin etibarlı olub-olmadığı məsələsinə heç bir təsiri yoxdur və ola da bilməz.** Buna görə də Heydərov Aydın İbadulla oğlu tərəfindən Əliyev Nəcəf Alim oğluna qarşı kredit müqaviləsinə istinad olunaraq pulun ödənilməsinə dair qaldırılan iddia tələbi məhkəmə icraatına götürüldükdən sonra Əliyev Nəcəf Alim oğlu tərəfindən yenidən həmin

müqavilənin etibarsız hesab olunmasına dair iddia tələbinin ayrı bir məhkəmə icraatında aparılması hüquqa və qanunvericliyə ziddir (MPM.m.259.0.4.). Belə ki, Heydərov Aydın İbadulla oğlu tərəfindən Əliyev Nəcəf Alim oğluna qarşı kredit müqaviləsinə istinad olunaraq pulun ödənilməsinə dair qaldırılan iddia tələbi üzrə məhkəmə icraatı onsuzda həmin müqavilənin etibarlı olub-olmadığını da əhatə edir. Çünki Heydərov Aydın İbadulla oğlu tərəfindən Əliyev Nəcəf Alim oğluna qarşı pul tələbinin məhkəmə tərəfindən təmin oluna bilməsi birbşa həmin pul tələbinin mövcud olmasına bağlıdır. Həmin pul tələbinin mövcud olması isə ilk növbədə Heydərov Aydın İbadulla oğlu ilə Əliyev Nəcəf Alim oğlu arasında etibarlı müqavilə münasibətinin mövcud olmasından asılıdır. Bu qeyd olunanlar açıqca onu göstərir ki, Heydərov Aydın İbadulla oğlu tərəfindən Əliyev Nəcəf Alim oğluna qarşı pulun ödənilməsilə bağlı qaldırılan iddia tələbi məhkəmə icraatına götürüldükdən sonra eyni tərəflər arasında həmin müqavilənin etibarsızlığına dair ayrı bir məhkəmə icraatının başladılması hüquqa və prosessual qanunvericiliyə və onun məqsədinə ziddir.

**1.2. Kredit müqaviləsinin bağlanmış olması, öz-özlüyündə müqavilədə nəzərdə tutulan borc məbləğinin borc alana verildiyini təsdiq etmir.** AR Mülki Məcəlləsinin 739.1-ci maddəsinə görə, "*Borc müqaviləsinə görə, iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür*". Mülki Məcəllənin 739.2-ci maddəsinə görə, "*Borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır*". Göründüyü kimi, tərəflər arasında kredit müqaviləsinin bağlanılması, öz-özlüyündə həmin müqavilə üzrə borc verənin öz öhdəliyini icra etdiyini, yəni borc məbləğini borc alana verdiyini təsdiq etmir. Kredit müqaviləsi üzrə ödənilməli olan məbləğin müqavilə bağlandığı anda dərhal deyil, müəyyən bir müddət zərfində veriləcəyinin nəzərdə tutulduğu hallarda isə, bu (yəni sırf kredit müqaviləsinin bağlanmış olmasının borc məbləğinin borc alana verildiyini təsdiq etməməsi) özünü daha bariz şəkildə göstərir.

Tərəflərin həm bu müqavilədən əvvəl, həm də sonrakı münasibət və davranışları onu göstərir ki, nə Heydərov Aydın İbadulla oğlu notariat qaydasında təsdiq olunan bu müqavilə üzrə öz üzərinə Əliyev Nəcəf Alim oğluna qarşı 360000 ABŞ dolları məbləğində pul vermək öhdəliyi götürmək niyyəti daşıyıb, nə də ki, Əliyev Nəcəf Alim oğlu həmin müqavilə üzrə Heydərov Aydın İbadulla oğlundan bu məbləği almaq niyyəti daşıyıb. Belə ki, Əliyev Nəcəf Alim oğlu heç vaxt Heydərov Aydın İbadulla oğlundan bu müqavilə üzrə pul tələb etməmişdir. Tam əksinə, bu müqaviləni görünüş üçün bağladığını bildirməklə, faktiki olaraq kredit müqaviləsi bağlamaq niyyəti daşımadığını etiraf etmişdir. Heydərov Aydın İbadulla oğlu da həmin müqavilə

üzrə pul ödədiyini təsdiq edən sübut təqdim etmədiyi kimi, həmin müqaviləni Əliyev Nəcəfin ona qarşı müqavilədə göstərilən həcmdə borclu olduğunu təsdiq etdirmək üçün bağladığını etiraf etmişdir. Bütün bunlar, yəni işin halları və tərəflərin məhkəmə prosesindəki ifadələri onu göstərir ki, onların əsas məqsədi Əliyev Nəcəf Alim oğlunun Heydərov Aydın İbadulla oğluna qaşrı borclu olmasını təsdiq edən sübutu təmin etmək olmuşdur.

**1.3. Uydurma və yalan əqd anlayışı.** MM-in 340.1-ci maddəsinə görə, "*Uydurma əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti olmadan yalnız görünüş üçün bağlanmış əqddir. Uydurma əqd əhəmiyyətsizdir*". Həmin məcəllənin 340.2-ci maddəsinə görə "*Yalan əqd başqa əqdi pərdələmək məqsədi ilə bağlanan əqddir. Yalan əqd əhəmiyyətsizdir*".

Qanuni tərifdən də göründüyü kimi **uydurma əqd**dən bəhs edilə bilməsi üçün aşağıdakı şərtlərin hamısının birlikdə gerçəkləşmiş olması lazımdır:

1- əqdi bağlayanlar ona uyğun heç bir hüquqi nəticə, yəni özləri üçün həmin əqd üzrə hüquq və öhdəlik yaratmaq niyyəti olmadan həmin əqdi bağlamış olmalıdır. Başqa sözlə, əqdin tərəfləri həmin əqd üzrə hüquq və vəziəflərin əmələ gəlməməsi barəsində öz aralarında razılığa gəlmiş olmalıdır,

2- Uydurma əqd sırf başqalarını aldatmaq məqsədilə bağlanmış olmalıdır.

**Yalan əqd**dən bəhs edilə bilməsi üçün aşağıdakı şərtlərin hamısının birlikdə gerçəkləşmiş olması lazımdır:

1- Əqdin tərəfləri eyni anda iki ayrı əqd bağlamış olmalıdır,

2- Bu əqdlərdən biri onu bağlayanların həqiqi iradəsini əks etdirməsinə baxmayaraq gizlədilmiş olmalıdır,

3- Görünüşdəki əqd, sırf həqiqi iradəyə uyğun əqdi pərdələmək üçün, yəni onu gizlətmək məqsədilə bağlanmış olmalıdır,

4- Tərəflər görünüşdəki əqd üzrə hüquq və vəziəflərin əmələ gəlməməsi barəsində öz aralarında razılığa gəlmiş olmalıdır,

5- Görünüşdəki əqd sırf başqalarını aldatmaq məqsədilə bağlanmış olmalıdır.

**1.4. Bu baxımdan şikayətlə bağlı həlledici hüquqi məqam** *Heydərov Aydın İbadulla oğlu ilə Əliyev Nəcəf Alim oğlu arasında bağlanan* ***müqavilənin sırf Heydərov Aydın İbadulla oğlunun kreditorlarını aldatmaq məqsədilə olub-olmadığıdır***. Çünki tərəflər arasındakı bu müqavilə əgər *sırf Heydərov Aydın İbadulla oğlunun kreditorlarını aldatmaq məqsədilə görünüş üçün bağlanıbsa, onda tərəflər arasındakı bu müqavilənin uydurma əqd olduğuna şübhə yeri qalmaz*. Yox əgər tərəflərin məqsədi Əliyev Nəcəf Alim oğlunun Heydərov Aydın İbadulla oğluna qarşı borclu olduğuna dair sübut təmin etməksə, onda sözü gedən 27 aprel 2015-ci il tarixli müqaviləni etibarlı hesab etmək lazım gəlir. Çünki belə olan halda yalan əqddən bəhs etmək mümkün olmur. Belə ki,

yalan əqdin varlığını qəbul edə bilməyimiz üçün Heydərov Aydın İbadulla oğlu ilə Əliyev Nəcəf Alim oğlunun kredit müqaviləsini bağlamaqla əsl niyyətlərini, yəni borcun etirafı niyyətlərini gizlətmək məqsədi güdmüş olmalıdırlar. Yəni bəhs edilən kredit müqaviləsini sırf borc etirafını gizlətmək üçün bağlamış olmalıdırlar. Halbuki həm işin hallarından, həm də adi məntiqlə onların borc etirafını ört-basdır etmək niyyətlərini güddüklərini qəbul etmək mümkün deyildir. Çünki borc etirafı halında da Əliyev Nəcəf Alim oğlunun Heydərov Aydın İbadulla oğluna qarşı borclu olduğu hüquqi baxımdan öz təsdiqini tapır, kredit müqaviləsi bağlanıldığı təqdirdə də. Yəni həm faktiki, həm də hüquqi baxımdan nəticə dəyişmir: hər iki halda da Əliyev Nəcəf Alim oğlunun Heydərov Aydın İbadulla oğluna qarşı borclu olduğuna dair hüquqi vəziyyət yaranır. Bir sözlə, həm hüquqi nəticə baxımından burada faktiki bir "pərdələmə" yoxdur, həm də ümumiyyətlə belə bir pərdələmək üçün hər hansı bir ağlabatan mənafe və məqsəd yoxdur. Buna görə də burada tərəflər arasında kredit müqaviləsinin borc etirafını ört-basdır etmək niyyətilə bağlandığı fikri tərəflərin məhkəmə icraatları zamanı nümayiş etdirdikləri mövqe və ifadlərinə, məntiqə və işin faktiki hallarına uyğun deyildir.

Nəticə etibarilə tərəflər arasında bağlanılmış olan müqavilənin etibarlılığı baxımından əsas məsələ kredit müqaviləsinin borcun etirafı məqsədiləmi, yoxsa *sırf Heydərov Aydın İbadulla oğlunun kreditorlarını aldatmaq məqsədilə görünüş üçün* bağlanıldığının müyyənləşdirilməsi məsələsidir. Çünki işin halları onu göstərir ki, tərəflər arasında həqiqətdə sözü gedən müqavilə üzrə kredit münasibəti yaranmamışdır. Belə olan halda Əliyev Nəcəf Alim oğlunun Heydərov Aydın İbadulla oğluna qarşı borclu olmasını təsdiq edən hüquqi əsasın mövcudluğu sübuta yetirilməlidir.

## II. Müraciətə əsas təşkil edilən hüquqi mübahisə ilə bağlı qənaət

Məhkəmələrin ümumi yanaşması bundan ibarət olmuşdur ki, tərəflər arasında dərman satışı ilə bağlı alğı-satqı münasibətləri nəticəsində Əliyev Nəcəf Alim oğlunun Heydərov Aydın İbadulla oğluna qarşı borcu yaranmışdır. Məhkəmələr öz qərarlarında belə bir nəticəyə necə gəldiklərinə dair xüsusi açıqlama verməsələr də, işin halları borcun yarandığını göstərir. Belə ki, tərəflər arasında dərman satışı ilə bağlı alğı-satqı münasibətləri olduğu işin mübahisəsiz halıdır, çünki hər iki tərəf də bunu təsdiq etmişdir. Həmçinin, şikayət verən tərəfin əsas iddialarından biri də onun borc etirafını təsdiq edən sənədi verməsinin və sözü gedən müqaviləni bağlamasının əsas səbəbi Heydərov Aydın İbadulla oğlunun satılan dərmanlara görə borcunun yaranmasıdır. Bundan başqa, şikayət verən birmənalı olaraq təsdiq etmişdir ki, o, Heydərov Aydın İbadulla oğlu ilə birgə topdan və pərakəndə dərman satışı ilə məşğul olmuşdur. Bütün bunlara bir də Əliyev Nəcəf Alim oğlunun borc etirafını təsdiq edən yazılı sənəd verməsini və sonradan da notariat qaydasında yuxarıda qeyd

olunan formada müqavilə bağamasını əlavə etdikdə tərəflər arasında dərman satışı ilə bağlı borc münasibətinin yarandığını qəbul etmək üçün haqlı əsas yaranır. Hansı məbləğdə borcun yarandığı sualına yenə də yazılı borc etirafı və notariat qaydasında təsdiq olunan yazılı razılaşma sübut kimi cavab təşkil edə bilər. Çünki tərəflər arasındakı mövcud olmuş münasibətlər nəzərə alındıqda belə bir rəqəmin Əliyev Nəcəf Alim oğlu tərəfindən əsassız olaraq sırf təsadüfən yazılı surətdə təsdiq olunması ağlabatan deyildir. Beləliklə, Heydərov Aydın İbadulla oğlunun iddiası işin hallarına uyğun gəlir və Əliyev Nəcəf Alim oğlunun vermiş olduğu yazılı sənədlərlə də təsdiq olunur. **Buna görə də mövcud vəziyyətdə yaranmış olan şəraitə görə artıq Əliyev Nəcəf Alim oğlunun sübut etməsi lazım gəlir ki, onlar bu borcu təsdiq edən sənədləri sırf Heydərov Aydın İbadulla oğlunun *kreditorlarını aldatmaq məqsədilə görünüş üçün* etmişdirlər. Əliyev Nəcəf Alim oğlu bununla bağlı heç bir sübut irəli sürməmiş və onun bu borcu təsdiq edən sənədləri Heydərov Aydın İbadulla oğlunun hansı kreditorlarını aldatmaq məqsədilə etdiyinə dair də heç bir açıqlama verməmişdir. Əliyev Nəcəf Alim oğlunun bu qədər böyük həcmli bir borc məbləğini Heydərov Aydın İbadulla oğlu üçün öz üzərinə götürərkən Heydərov Aydın İbadulla oğlunun hansı kreditorlara qarşı və konkret olaraq hansı səbəb və şərtlərlə bağlı borclandığını bilməməsi ağlabatan deyildir və gündəlik həyatın reallığına uyğun gəlmir. Həmçinin nəzərə almaq lazımdır ki, Əliyev Nəcəf Alim oğlu real və böyük təhlükə ilə hədələndiyinə dair hər hansı bir iddia və əsas irəli sürməmişdir**.

MM-in 324.5-ci maddəsində "*İradə ifadəsinin təfsiri zamanı onun həqiqi məzmunu təkcə hərfi mənaya görə deyil, həm də ağlabatan mühakimə əsasında müəyyənləşdirilməlidir*" şəklində bir qanuni tənzimləməyə yer verilmişdir. Həmçinin həmin məcəllənin 404.1-ci maddəsinə görə, "*Müqavilə şərtlərini təfsir edərkən məhkəmə təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini nəzərə alır*". **Tərəflərin iradə ifadəsinin həqiqi mənasının necə müyyənləşdirilə biləcəyi ilə bağlı da** MM-də istiqamətverici qanuni əsaslar göstərilmişdir. Belə ki, MM-in 404.2-ci maddəsində "*bütün müvafiq hallar, o cümlədən müqaviləyə qədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış praktika, işgüzar adətlər, tərəflərin sonrakı hərəkətləri nəzərə alınır*" şəklində bir müddəaya yer verilməklə tərəflərin iradə ifadəsinin həqiqi mənasının necə müəyyənləşdirilməsi məsələsinə də qanuni açıqlıq gətirilmişdir.

Göründüyü kimi, mülki qanunvericiliyə görə, müqavilənin mahiyyət və şərtləri müəyyənləşdirilərkən əsas olan hərfi məna deyil, tərəflərin həqiqi iradə və niyyətləridir. Çünki əqd və onun ən geniş yayılmış növü olaraq müqavilə sırf onu bağlayanların iradə və niyyətləri sayəsində əmələ gəlir. Məhz bu səbəblə də

MM-in 324.5, 404.1 və 404.2-ci maddələrində yuxarıda göstərilən məzmunda tənzimləmələr nəzərdə tutulmuşdur.

İşin bütün halları və onunla bağlı olan mövcud mülki qanunvericilik bütövlükdə məcmu (kompleks) şəkildə dəyərləndirildikdə belə bir hüquqi nəticəyə gəlməyə haqlı əsas verir ki, Heydərov Aydın İbadulla oğlu ilə Əliyev Nəcəf Alim oğlu tərəfindən bağlanılan 27 aprel 2015-ci il tarixli müqavilə hüquqi mahiyyəti etibarilə borc etirafının təsdiqi hesab olunmalıdır. Yəni sözü gedən 27 aprel 2015-ci il tarixli müqavilə kredit müqaviləsi kimi rəsmiləşdirilməsinə baxmayaraq, tərəflərin bu müqaviləni bağlamaqdakı həqiqi niyyət və iradələri Əliyev Nəcəf Alim oğlunun Heydərov Aydın İbadulla oğluna qarşı borcunun hüquqi baxımdan təsdiq olunmasını təmin etmək olmuşdur.

Nəticə etibarilə, 23.10.2014-cü il tarixli yazılı sənəd və 27 aprel 2015-ci il tarixli notariat qaydasında təsdiqlənən müqavilənin yalan və ya uydurma əqd hesab olunması üçün hüquqi əsas və sübut mövcud deyildir.

Bütün bunlar da Ali Məhkəmənin Mülki Kollegiyasının qərarının nəticə etibarilə hüquqa uyğun olduğunu deməyə hüquqi əsas verir.

**BDU Hüquq fakültəsinin**
**Mülki Hüquq kafedrasının dosenti**
**h.f.d, Sərvər Süleymanlı**